# Hər ağac bir abidədir

Doğma Qəbələmizin füsunkar, özünəməxsus təbiəti var. Bu təbiət göz oxşayır, insanlarda fərəh doğurur. Amma bütün canlılar kimi, təbiət də qayğı və məhəbbət sevir.

Azərbaycan təbiətinin füsunkar güşəsində yerləşən qədim Qəbələdə təbiətə qayğı və məhəbbət göstərilir, təbiət qorunur və inkişaf etdirilir.

Rayonumuzun təbiətsevərlərinin bu sahədəki uğurları həmin fikirləri söyləməyə əsas verir. Qəbələ Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin sahə rəisi İlqar Calalovun bizimlə söhbəti də bu məsələ ətrafında qurulmuşdur. O, dedi ki, yer üzərində mövcud olan 11 iqlim tipinin 9-u Azərbaycanımızda var. Bu amil ölkəmizdə zəngin biomüxtəlifliyin formalaşmasında mühüm rol oynayır. Sonra bildirdi ki, Azərbaycanda təxminən 4500 ali bitki növü yayılmışdır ki, bu da Qafqazın zəngin bitki aləminin növ tərkibinin 64 faizini təşkil edir, Bu zənginlikdən, füsunkarlıqdan Qəbələnin təbiətinə də yetərincə pay düşür. Meşə mühzafizəsi və bərpası müəssisənin kolllektivi bunu yaxşı bildiyinə görə təbiəti böyük məhəbbətlə sevir, onu göz bəbəyi kimi qoruyur.

Hal-hazırda rayonumuzun 24151 hektar meşə ərazisi var. Həmin ərazilər 4 meşəbəyiliyə bölünür. Bunlar Bum, Vəndam, Yenikənd, Zarağan meşəbəyiliyindən ibarətdir. Müəssisəmizdə çalışanların hamısı ana təbiəti sevən, ona qayğı göstərən insanlardır. Meşələrimizin qorunub mühafizə olunması sahəsində böyük dönüş yaratmışıq. Meşə işçiləri arasında tələbkarlığın artmasının, məsuliyyət hiissinin yüksəldilməsinin nəticəsidir ki, son zamanlar meşələrə hücumun qarşısı alınmış, qanunsuz qırıntıların həcmi aşağı salınmışdır. Meşə əkinini daim diqqət mərkəzində saxlayırıq. Müəssisəmizin bu sahədəki fəaliyyəti də təqdirəlayiqdir.

Söhbət əsnasında öyrəndik ki, müəssisənin işçiləri tərəfindən çürüyən, qocalan, yıxılan ağaclar müntəzəm surətdə yeniləri ilə əvəz olunur, boş sahələrdə təzə meşəliklər salınır. Bu məqsədlə cari ildə müəssisə tərəfindən 60 hektar sahədə meşə əkini aparılmışdır ki, bu da nəzərdə tutulandan xeyli çoxdur. Burada yaradılmış meşə tingliyinin sahəsi 5 hektardır. Tinglikdə 6 növdən çox ağac yetişdirilir. Əsasən şabalıd, qoz, ağçaqayın, göyrüş, qarağac, akasiya və sair ağac tingləri yetişdirilir.

Tinglərin bir hissəsi yerli toxumlardan ibarətdir. Bu ilin yaz və payız fəsillərində xeyli sahədə qoz, şabalıd, türk qovağı, akasiya toxumları səpilib. Hər yerdə gözəl bitiş alınıb. Meşə tingliyinin təcrübəli işçiləri çoxdur. Mütəxəssis Cavad Feyruzov, fəhlələrdən Eldar Fərhadov və başqaları torpağın təravətini gözəl duyur, hər bir ağacın, tingin qədrini bilir, onu həvəslə becərib qoruyurlar. Son illər Qəbələ tingliyindən rayonun, o cümlədən şəhərin ərazisində minlərlə ağac əkilmişdir.

Müəssisənin sahə rəisi İlqar Calalov deyir ki, hər ağac bir abidədir. Ətraf mühitin qorunmasında, ekoloji saflığın mühafizəsində yaşıllığın rolu əvəzsizdir. Hər ağacı, hər gül kolunu gərək diqqətlə qoruyaq, ona qayğı ilə qulluq edək. Təbiəti sevən hər kəsin müqəddəs borcudur ki, imkan daxilində torpaq üzərində bir yadigar yaratsın.

Üç aydan sonra yaz əkini mövsümü başlanılacaq. Qəbələ ting ustaları onlarla hektar sahəni özlərinin yetişdirdikləri ağac və gül kolları ilə bəzəyəcəklər.

**Aslan CƏLİLOV.**

# Birinci yeri tutmuşdur

Qəbələ İdman Klubunun yaradılmasının 10 illiyinə həsr edilmiş futbol turniri keçirilmişdir. Turnirdə ayrı-ayrı məktəblərin VII sinif şagirdlərindən ibarət futbol komandaları iştirak etmişdir. Komandaların final yarışı ötən il dekabr ayının 18-də baş tutmuşdur. Finalda T. Yaqubov adına Bum qəsəbə tam orta məktəbin komandası 1-ci yeri tutmuş və komandaya diplom, kubok, medallar və sertifikatlar təqdim olunmuşdur.

Bundan başqa turnirin ən yaxşı məşqiçi müəllimi Tofiq Qaragözov, ən yaxşı müdafiəçisi Anar Məmmədyarov, ən çox top vuran oyunçu Kənan Qaragözov da diplom, medal və hədiyyələrlə təltif edilmişlər.

Gərgin keçən finalda oyun 2:2 hesabı ilə başa çatdığı üçün komandalara əlavə vaxt verilmişdir. «Qızıl top» prinsipi ilə keçirilən oyunda Bum qəsəbə tam orta məktəbin komandası Qəbələ şəhər 5 saylı tam orta məktəbin komandasına 3:2 hesabı ilə qalib gələrək turnirin baş mükafatını almışdır.

Yarışların təşkilində, Qəbələ İdman Klubunun rəhbəri Elşən İsgəndərovun böyük və misilsiz zəhməti danılmazdır. Onun rəhbərliyi altında turnir öz işini uğurla başa çatdırmışdır.

**Emin BARATOĞLU,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

# Miniatür Kitab Muzeyi «Ginnesin Rekordlar Kitabı»nda

Bu yaxınlarda Bakının İçərişəhər Dövlət Tarix-Memarlıq Qorugunun ərazisində yerləşən Miniatür Kitab Muzeyinin «Ginnesin Rekordlar Kitabı»na düşməsinin bir ili tamam olur. Xatırladaq ki, muzey uşaq vaxtlarından kitaba həddsiz marağı olan Zərifə Salahovanın şəxsi kitab kolleksiyası əsasında yaradılmışdır. Kitabxananın bugünkü şöhrətə yüksəlməsinin qəribə tarixi vardır.

1993-cü ildə ulu öndər Heydər Əliyev ilk dəfə Prezident seçilərkən Respublika sarayında keçirilən andicmə mərasimində geniş nitq söyləmişdir. Tədbirdə iştirak edən Zərifə Salahova Heydər Əliyevin dərin məzmunlu nitqinə qulaq asandan sonra qərara gəlir ki, bu nitqi miniatür kitab (7,5 x 7,5 mm) şəklində çap etdirsin. Kitab «Vətənə, dövlətə, xalqa sədaqət andı» adı ilə Azərbaycan rus və ingilis dillərində çap olunmuşdur. Kitabın 1995-ci ildə Milli Kitabxananın oxu salonunda təqdimat mərasimi keçirilir. Təqdimat mərasimində Zərifə Salahovanın şəxsi kolleksiyasında olan 4.000 kitabından 2000 kitabının sərgisi də təşkil olunur. Sərgidə C. Kennedi, Erik Honekker kimi siyasi xadimlərin nitqlərindən ibarət kitablar da nümayiş etdirilirdi. Heydər Əliyev tədbirdə çıxış etmiş, sərgi ilə tanış olmuş və bu təşəbbüsü yüksək qiymətləndirmişdir. Bundan sonra ümummilli lilder Heydər Əliyevin göstərişi və UNESCO-nun qərarı əsasında 2002-ci il aprel ayının 23-də Beynəlxalq Kitablar və Müəllif hüquqları Günündə Miniatür Kitab Muzeyinin açılışı olub. Ötən il yanvar ayının 20-də muzey 2913 miniatür kitabla «Ginnesin Rekordlar Kitabı»na salınmışdır.

Hazırda minatür kitab muzeyinin 38 rəfində 5700 nüsxədən çox kitab var. 67 ölkədə çap olunmuş bu kitabların ən kiçik formatlısının ölçüsü 75x75 mm-dir. 3 ədədinin ölçüsü isə 2x2,9 mm formatındadır. Muzeyə fəaliyyəti dövründə 250 mindən çox ziyarətçi gəlib.

**N. ATAKİŞİYEV.**

# 2016-cı ilin iş vaxtı norması və istehsalat təqvimi təsdiq edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 29 dekabr 2015-ci il tarixli 9 nömrəli qərarı ilə 2016-cı ilin iş vaxtı norması və istehsalat təqvimi təsdiq olunub. İş vaxtı norması və istehsalat təqvimi mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlarda Əmək Məcəlləsinin tələblərinə uyğun şəkildə işçilərin iş vaxtı normasının düzgün hesablanması və tətbiq edilməsi məqsədinə xidmət edir.

İş vaxtı normasına görə, Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "2016-cı ildə Novruz, Ramazan, Qurban bayramları haqqında" 24 dekabr 2015-ci il tarixli 402 nömrəli qərarına əsasən, 2016-cı ildə 1-2 yanvar (Yeni il bayramı), 20 Yanvar (Ümumxalq Hüzn Günü), 8 mart (Qadınlar Günü), 20, 21 , 22, 23, 24 mart (Novruz bayramı), 9 may (Faşizm üzərində Qələbə Günü), 28 may (Respublika Günü), 15 iyun (Azərbaycan xalqının Milli Qurtuluş Günü), 26 iyun (Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü), 6, 7 iyul (Ramazan bayramı), 12, 13 sentyabr (Qurban bayramı), 9 noyabr (Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü), 31 dekabr (Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü) iş günü hesab edilmir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 105-ci maddəsinin 5-ci hissəsinə və Nazirlər Kabinetinin 2015-ci il 24 dekabr tarixli 402 nömrəli qərarına əsasən 2016-cı ildə həftələrarası istirahət günlərinin iş günləri hesab olunmayan bayram günləri ilə üst-üstə düşməsi ilə əlaqədar olaraq beşgünlük iş həftəsində 25 mart, 30 may, 27 iyun, altıgünlük iş həftəsində isə 25 mart və 27 iyun tarixləri istirahət günləridir.

Sənədə əsasən, 2016-cı ilin fevral ayı 29 təqvim günündən ibarət olduğuna görə il 366 təqvim günündən ibarət olacaq.

Gələn ildə beşgünlük iş həftəsində 243 iş günü (onlardan 6-sı bayramqabağı, 1-i Ümumxalq Hüzn Günü qabağı iş günləridir), iş günü hesab edilməyən 109 istirahət günü (onlardan 4-ü iş günü hesab edilməyən bayram günləri ilə üst-üstə düşən həftələrarası istirahət günlərinin əvəzinə verilən istirahət günləri), iş günü hesab edilməyən 18 bayram günü (5-i istirahət günləri ilə üst-üstə düşən) və 1 Ümumxalq Hüzn Günü vardır.

Əmək Məcəlləsinin 89-cu və 90-cı maddələrinə əsasən, ölkəmizdə gündəlik normal iş vaxtının müddəti 8 saatdan artıq ola bilməz və bir qayda olaraq iki istirahət günü olan beşgünlük iş həftəsi müəyyən edilir. Gündəlik normal iş vaxtına uyğun olan həftəlik normal iş vaxtının müddəti isə 40 saatdan artıq ola bilməz. Növbəti ilin iş vaxtı norması 40 saatlıq beşgünlük iş həftəsi üzrə 8 saatlıq iş günü hesabından müəyyən edilir. Bu zaman məcəllənin 108-ci maddəsinin 1-ci hissəsinə müvafiq olaraq iş günü hesab edilməyən bayramqabağı, səsvermə, habelə Ümumxalq Hüzn Günü qabağı iş günlərində həftəlik iş günlərinin müddəti bir saat qısaldılır.

Qanunvericiliyə uyğun olaraq 2016-cı il üçün 40 saatlıq iş həftəsində iş vaxtının illik norması 1937 saat təşkil edəcək. İstehsalın, işin, xidmətin və əmək şəraitinin xarakterindən asılı olaraq tətbiq edilən bir istirahət günü olan altıgünlük iş həftəsi və müəyyən qeydiyyat (uçot) dövrü üçün növbə cədvəlləri beşgünlük iş həftəsinin həmin dövr üzrə iş vaxtı normasına riayət edilməklə tərtib olunur. Əmək Məcəlləsinin 90-cı və 108-ci maddələrinə əsasən altıgünlük iş həftəsi tətbiq edilərkən həftəlik norma 40 saat olduqda gündəlik iş vaxtının müddəti 7 saatdan və bilavasitə sonrakı gün istirahət günü olan iş gününün müddəti isə 6 saatdan çox ola bilməz. Məcəllənin 91-ci, 92-ci və 93-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, qalan iş yerlərində səsvermə, bu məcəllənin 105-ci maddəsində göstərilən iş günü hesab edilməyən bayram günləri və Ümumxalq Hüzn Günü qabağı iş gününün müddəti həftəlik iş günlərinin sayından asılı olmayaraq bir saat qısaldılır. Altıgünlük iş həftəsi olan iş yerlərində 40 saatlıq iş həftəsində çalışan işçilər üçün 2016-cı ildə beşgünlük iş həftəsi üzrə hesablanmış 1937 saatlıq illik iş vaxtı norması tətbiq edilməlidir.

İş vaxtının qeydiyyatı (uçotu) dövründə və ya təqvim ili ərzində iş vaxtı saatları iş vaxtı normasına uyğun gəlirsə, ayrı-ayrı aylarda iş vaxtının normal iş vaxtından az və ya çox işlənilməsi halları, altıgünlük iş həftəsi cədvəlinə yenidən baxılması üçün əsas ola bilməz. Qeydiyyat (uçot) dövründə iş vaxtının müddəti qanunvericiliklə müəyyən olunmuş iş saatlarının sayından çox olmamaq şərti ilə iş vaxtının cəmlənmiş uçotu tətbiq edilə bilər. Bu halda qeydiyyat (uçot) dövrü bir ildən artıq, gündəlik işin (növbənin) müddəti isə 12 saatdan çox ola bilməz.